Səh. 2 Hamının xoşuna gəlmək və ya multiyaltaq – Azər Musaoğlu
Səh. 3 Dəyərlər yalnız sözlə deyil, həm də davranışla ötürülür – Hacı Bəkiroğlu
Səh. 5 Narkomaniya – səssiz fəlakət – Afaq Azər
Səh. 6 Çoxbilmiş KarlikSon – Binəli İslamoğlu
Səh. 2 Vətən anlayışı – Cəlal Yadigarlı
Səh. 4 "NİYƏ BİR UNİVERSİTETƏ QƏBUL OLUB DİGƏRİNDƏ OXUMALIYAM?" – 1+4 PROQRAMI TƏLƏBƏLƏRİNİ NƏ GÖZLƏYİR?
Səh. 7 Belə-belə işlər: Qalaktion Tabidze – Mirzə Məmmədoğlu

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART
2026-CI İL
№ 06 (246)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TÜRKİYƏ GÜRCÜSTANA HƏRBİ TƏYİNATLI TEXNİKA VERİB



Türkiyə istehsalı olan hərbi təyinatlı texnika Gürcüstan Müdafiə Nazirliyinin Xüsusi Əməliyyatlar Qüvvələrinə verilib.

Təhvil-təslim mərasimi Tbilisinin Vaşlijvari qəsəbəsində yerləşən xüsusi təyinatlıların bazasında keçirilib.

Tədbirdə Gürcüstan tərəfdən general-mayor Zaza Çxaidze, Türkiyəni isə ölkənin Gürcüstandakı səfiri Ali Kaan Orbay təmsil edib.

Texnikanın təhvil verilməsi barədə müvafiq sənədi Gürcüstan Xüsusi Əməliyyatlar Komandanlığının nümayəndəsi Teymuraz Klateişvili və Türkiyənin hərbi attaşesi İlhan Oktendurali imzalayıblar.

Rəsmi hissədən sonra qonaqlar baza ərazisində yerləşən atıcılıq poliqonuna baxış keçirib və nümayiş atışını izləyiblər.

Qeyd edək ki, 2025-ci ildə də Türkiyə tərəfi Gürcüstanın Xüsusi Əməliyyatlar Qüvvələrinə müxtəlif avadanlıq təqdim edib.

## GÜRCÜSTAN PREZİDENTİ VƏ BAŞ NAZİRİ MÜSƏLMAN İCMASINI TƏBRİK EDİB



Gürcüstan Prezidenti Mixeil Kavelaşvili və Baş nazir İrakli Kobaxidze müsəlman icmasını Ramazan və Novruz bayramları münasibətilə təbrik ediblər.

Onlar bəyanatlarında Gürcüstanın Katalikos-Patriarxı II İliyanın vəfatı ilə əlaqədar yas tutan gürcü pravoslav xristianlarına göstərilən həmrəyliyə görə müsəlman icmasına təşəkkürlərini bildiriblər.

M.Kavelaşvili vurğulayıb ki, müsəlman vətəndaşların bu həssas dönəmdə bayram tədbirlərindən imtina etməsi ölkədə yaşayan müxtəlif dini icmalar arasında mövcud olan qardaşlıq, dostluq və qarşılıqlı hörmətin bariz nümunəsidir.

İ.Kobaxidze isə müsəlman icmasına bu günlərdə bayram tədbirlərini ləğv etdikləri üçün xüsusi minnətdarlığını ifadə edib:

***“Bu qardaş dəstəyi heç vaxt unutmayacağıq. Çətin və sevincli günlərdə birlik nümayiş etdirmək ölkənin birliyinin əsasını təşkil edir. Əsrlər boyu müxtəlif icmalar Gürcüstan tarixini birlikdə formalaşdırıb və bu gün də gələcək nəsillər üçün daha yaxşı gələcək qururlar”.***

## 2028-2029-CU İLLƏRDƏ DÖVLƏT UNİVERSİTETLƏRİNƏ QƏBUL KVOTALARI İKİQAT ARTIRILACAQ



Gürcüstanda ali təhsil sistemində nəzərdə tutulan dəyişikliklərə əsasən 2028-2029-cu tədris ilində ölkə universitetlərinə qəbul kvotaları ikiqat artırılacaq. Bu barədə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, bu qərar həmin dövrdə 11-ci və 12-ci sinif şagirdlərinin eyni vaxtda məktəbi bitirməsi ilə əlaqədardır. Bu isə ali təhsil müəssisələrinə müraciət edən abituriyentlərin sayında kəskin artım yaradacaq.

Eyni zamanda, dəyişikliklər magistratura səviyyəsinə də təsir göstərəcək. Belə ki, bakalavr proqramlarının böyük hissəsinin 3 illik təhsil modelinə keçməsi nəticəsində 2024-cü və 2025-ci illərdə təhsil alan tələbələrin əksəriyyəti 2027-2028-ci tədris ilində məzun olacaq. Bu səbəbdən 2028-2029-cu tədris ili üçün magistr proqramlarına qəbul sayının da artırılması nəzərdə tutulur.

Qeyd edək ki, aparılan islahatlar çərçivəsində ümumi təhsil sistemində də dəyişikliklər tətbiq edilir. Orta məktəb mərhələsi 10-11-ci sinifləri əhatə edəcək, 12-ci sinif isə könüllü olacaq. Şagirdlər istədikləri halda əvvəlcədən qeydiyyatdan keçərək təhsillərini 12-ci sinifdə davam etdirə biləcəklər. 11-ci sinif şagirdləri üçün xüsusi hazırlıq (bərpa) sinifləri təşkil olunacaq ki, bu da onların milli imtahanlara daha effektiv hazırlaşmasına imkan verəcək.

Yeni qaydalar hazırda 9-cu sinifdə təhsil alan şagirdlərə şamil ediləcək.

## GÜRCÜSTAN ATƏT-İN TƏHLÜKƏSİZLİK ƏMƏKDAŞLIQ FORUMUNA SƏDRLİK EDƏCƏK




Gürcüstan aprelin 13-dən etibarən ATƏT-in Təhlükəsizlik Əməkdaşlıq Forumuna (FSC) sədrlik edəcək. Bu barədə Gürcüstanın Avstriyadakı səfirliyi məlumat yayıb.

Məlumatda bildirilib ki, sədrliyin Gürcüstana ötürülməsi martın 25-də forumun son iclası çərçivəsində həyata keçirilib. Həmin vaxta qədər quruma Fransa sədrlik edirdi.

Gürcüstan bu vəzifəni sentyabrın 4-nə qədər icra edəcək, daha sonra isə sədrliyi Böyük Britaniya təhvil alacaq.

Qeyd edək ki, Təhlükəsizlik Əməkdaşlıq Forumu ATƏT-in əsas qərar qəbuletmə platformalarından biri hesab olunur və təşkilata üzv ölkələr arasında təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsini hədəfləyir.



# HAMININ XOŞUNA GƏLMƏK VƏ YA MULTİYALTAQ

Azər Musaoğlu
azermusaoghlu@gmail.com

Biz niyə hamının xoşuna gəlməyə çalışırıq? Niyə istəyirik ki, hamı bizi bəyənsin, tərifləsin, sevsin? Bu, kənardan baxanda artıq kompleks kimi, toplumun xarakterinə çevrilmiş kimi görsənir. Əvvəl fərdi olsa da, artıq kütləvidir. Niyəsə toplum olaraq başqa toplumların xoşuna gəlmək üçün sinov gedirik, canfəşanlıq edirik, dəridən-qabıqdan çıxırıq. Bizə ikinci, üçüncü sort kimi baxanlara, yanaşanlara yaxşı, savadlı, sülhsevər, liberal, tolerant, multikultural olduğumuzu sübut etmək üçün əlimizdən gələni edirik. Hər dəfə də qaş düzəltmək istədiyimiz olur, vurub gözü də çıxardırıq. Multikultural olmaq istəyirik, "multi-user"ə çevrilirik.

Ümumiyyətlə, bizim özümüzü kimlərəsə bəyəndirməyə, xoşuna gəlməyə ehtiyacımız varmı? Varsa, nədir bu ehtiyac; bu canfəşanlığın altında-üstündə hansı məqsəd(lər) gizlənib? Nədir qınımızdan çıxıb, qınımızı bəyənməməyimizin səbəbi? Niyə özümüzdən başqa hamının xoşuna gəlməyə çalışırıq? Niyə özümüzdən başqa hamı xoşumuza gəlir, hamını bəyənirik? Dünyada ideal heç nəyin olmadığını bilə-bilə niyə ideallarımızı özgələrində axtarırıq, yadları nümunə, örnək götürürük?

Bu natamamlıq kompleksi sıravi insanımızdan tutmuş rəhbər şəxslərimizə qədər var. Ölürük özümüzü yadların yanında aşağılamaqdan ötrü, təki xoşlarına gələk. Axı, ay bədbəxt, özününkünü söysən də, aşağılasan da, keçmişini dansan da, kimliyini təhrif eləsən də, adını, soyadını dəyişdirib xoşuna gəlmək istədiklərinin adından yazdırsan da pasportuna, xoşuna gəlmək istədiklərinin gözündə ucalmayacaqsan, nə varını-dövlətini sənə verəcək, nə də səni özününkü hesab edəcək. Sən onun gözündə elə özün qalacaqsan, bu yarınmaq canfəşanlığına görə isə onun gözündə daha da alçalacaqsan, üçüncü, dördüncü sort olacaqsan və sənin bu alçaqlığın bütün toplumun adına yazılacaq.

Əslində, bütün bunlar özünü tanımamaqdan irəli gəlir. İnsan öz tarixini, ədəbiyyatını, mədəniyyətini, dinini, dilini bilməyəndə başlayır öz tarixini, ədəbiyyatını, mədəniyyətini, dinini, dilini bilənlərin qarşısında komplekslənməyə və bu natamamlıq kompeksini yadlara yarınmaqla, başqalarının xoşuna gəlmək üçün onları tərifləməklə, ucaltmaqla, könüllü xidmət göstərməklə, doğru hesab etməklə, hətta bəzən yadla ailə qurmaqla ört-basdır edir, özündəki yarımçıqlığı bunlarla doldurur. Məsələn, özünün şair-yazıçısını, alimini, incəsənət xadimlərini, tarixi şəxsiyyətlərini tanımır deyə ona təqdim olunanları tərifləyir; özünün milli adət-ənənələrindən, bayramlarından xəbəri yoxdur deyə bu boşluğu özgələrin adət-ənənələri ilə, bayramlarını qeyd etməklə doldurur (Özgə atına minən tez düşər (atalar sözü); öz dinini xoşuna gəlmək istəyənlər terrorçu dini kimi göstərirlər deyə onların dininə rəğbət bəsləyir (Özünü tanımayan Allahını da tanımaz (atalar sözü); öz dilini alayarımçıq bilir deyə tarixini, ədəbiyyatını, mədəniyyətini öyrənə bilmir və sair. Və bu yarımçıq adam yadların xoşuna gəlmək üçün yaşamağa başlayır. Qanana da can qurban, qanmayana da, dad yarımçıq əlindən. Öz məqsədinə çatmaq üçün, öz mənafeyi üçün, pul üçün, vəzifə üçün başqalarının xoşuna gəlməyə çalışanlar da var ki, onların canfəşanlığı, yaltaqlığı aydındır. İlanın ağına da lənət, qarasına da!

Belə ki, titrəyin və özünüzə dönün, özünüzə dönəndə daha möhtəşəm olursunuz. Özünüz olun ki, sizə özünüz kimi hörmət eləsinlər, tanısınlar, bəyənsinlər. Bəyənmirlərsə, cəhənnəmə ki! Kiminsə xoşuna gəlmək üçün yaşamayın, xoşunuz gəldiyi kimi yaşayın. Hamının xoşuna gəlməyə ehtiyac da yoxdur. Normal insan hamının xoşuna gələ bilməz. Özünə hörmət edən adam hamının dostu ola bilməz. Hamının xoşuna gəlməyə çalışan, hamının dostu olan adamdan təhlükəli adam yoxdur. Almadan zəhlən gedirsə bütün ağaclarda bitən bütün almalardan zəhlən getməlidir, yox, əgər hansısa bağbanın xoşuna gəlmək üçün, yarınmaq üçün onun əkdiyi ağacın almasını bəyəndiyini deyirsənsə, sən yalançısan, qorxaqsan, ikiüzlüsən, yarımçıqsan, haqsızsan, yaltaqsan, özü də multiyaltaqsan. Hamının xoşuna gəlmək, hamının dostu olmaq, özününküləri söyüb, yadları tərifləmək üçün yalnız multiyaltaq olmalısan.

# VƏTƏN ANLAYIŞI



İnsan üçün müqəddəs olan dəyərlərdən biri də vətəndir. Ancaq təəssüfvericidir ki, bəzən bizim üçün müqəddəs olan vətən məfhumunun mahiyyətini tam dərk etmirik. Aramızda belə bir inanc yayılıb: "Harada doğulmusansa, ora sənin vətənindir". Lakin həqiqətdə belə deyil. Ümumiyyətlə, vətən mücərrəd anlayışdır, təfəkkürə, hissiyata, xarakterə görə dəyişə bilər. İnsana konkret bir məkan işarələyib, doğulduğu yerin onun vətəni olduğunu təsdiqləmək doğru deyil. Vətən məfhumunun konkret sərhədi olmur. İnsanın özünə doğma bildiyi, özünü rahat hesab etdiyi, milli dəyərlərinin yayıldığı, ana dilinin danışıldığı və s. hər yer onun vətəni ola bilər. Deyə bilərik ki, insan özünü harada xoşbəxt hiss edirsə, ora onun vətənidir.

Gürcüstan azərbaycanlıları arasında da vətən anlayışı problemlidir. Bəzi qüvvələr Azərbaycan türkləri arasında milli, mədəni, coğrafi diferensiasiya yaratmaq məqsədi ilə beynimizə yeritməyə çalışırlar ki, bizim vətənimiz ancaq doğulduğumuz ölkədir, Azərbaycan bizim vətənimiz deyil. Maraqlıdır, hansı qaydaya əsasən insanın öz təfəkküründən asılı olan bir dəyərə, anlayışa, məfhuma sərhəd təyin edirik? Bəzən "milli vətən" terminini işlədənlər də olur. Məncə, bu da həqiqəti əks etdirmir. Milli dövlət terminini işlədə bilərik, amma milli dövlətə "milli vətən" deyib sanki həqiqi vətəndən sonra ikincidərəcəli vətənmiş kimi dərk etmək olmaz. Hansısa xarici ölkədə işləyən insan üçün həmin ölkə maddi vətən ola bilərmi? Əlbəttə, xeyr! Problem işin kökündə, vətəni ancaq doğulduğumuz yer olaraq qəbul etməyimizdədir. İnsanın təfəkküründə vətənin sərhədi hara qədər gedirsə, ora onun vətəni olmalıdır. Gürcüstan mənim nə qədər vətənimdirsə, Azərbaycan da o qədər vətənimdir. Əgər bir insan vətən kimi tək Gürcüstanı qəbul edirsə, bu da yanlış deyil; amma çıxıb "bütün Gürcüstan azərbaycanlılarının vətəni təkcə Gürcüstandır" demək böyük yanlışdır.

Orta əsrlərdə vətən bir ölkə olaraq müəyyənləşdirilmirdi. Toplumu birləşdirən hər hansı ortaq bir ideyanın yayıldığı böyük coğrafiyanı bir insan vətəni kimi mənimsəyirdi. Bu gün fərqli millətləri birləşdirən ideyalar yox da, daha dar çərçivəli ideyalar ətrafında birləşdiyimiz üçün vətən anlayışını da düşüncəmizdə darlaşdırırıq. Bu da Borçalı gəncləri arasında fikir ayrılığına gətirib çıxarır. Bir Borçalı gənci Gürcüstanı nə qədər özünə vətən bilirsə, Azərbaycanı da, Türkiyəni də o qədər özünə vətən bilsə türk dünyası ilə Gürcüstan arasında sarsılmaz bir körpü rolunu oynaya, regionda sülhü təmin edə bilər. Amma biz qayəmizi tanımırıq. Sapı özümüzdən olan baltalar Gürcüstan azərbaycanlıları adından öz yanlarından təşkilatlar, icmalar, konqreslər qurur. Bədbəxtliyimiz isə orasındadır ki, heç biri bu millətin rifahına, intibahına, tərəqqisinə xidmət etmir. Ancaq bir-biri ilə didişərək parçalayıcı, nifrət doğurucu, utancverici fəaliyyətlərlə məşğul olurlar. Nə Gürcüstan dövləti yanında hansısa hörmətə nail olublar, nə cəmiyyət arasında.

Dmanisinin ən ucqar kəndində, Qaraçöpdə, Qabalda və s. əhalinin razılığını almadan heç kəs Gürcüstan azərbaycanlıları adından təşkilat qura bilməz. Bu millət tək Marneulidən ibarət deyil. Marneulidə oturub gənclər arasında yanlış təbliğat yaymaq bizi fəlakətə itələyir. Bir-birimizlə bu qədər didişdiyimiz müddətcə biz Gürcüstan dövlətindən hansı hörməti gözləyirik? Ana dilində təhsilimiz əldən gedir və bizim "mənəm-mənəm" deyən təşkilatlarımız bunu dilinə belə almır. Bəs nə üçün varlar? – Ancaq yanlış təbliğat aparıb gəncləri korlamaq üçün. Bu cür təxribatlara gərək aldanmayaq. Yaşadığı ölkənin mənafeyini müdafiə edən, vətəni olan milli dövləti sevən, kimliyini tanıyan, hədəfi olan gənclik yetişdirmədikcə biz millət olaraq uğura nail ola bilməyəcəyik.

**Cəlal Yadigarlı**
*Tbilisi Dövlət Universitetinin Tarix fakültəsinin 4-cü kurs tələbəsi*

# QADIN GÜCÜ və CƏMİYYƏT



Müasir cəmiyyətdə qadının rolu getdikcə daha çox görünən və müzakirə olunan mövzulardan birinə çevrilib. Lakin qadın gücü yalnız son illərin mövzusu deyil – o, tarix boyu ailənin və cəmiyyətin formalaşmasında əsas dayaqlardan biri olub. Bu gün isə bu güc artıq daha açıq şəkildə özünü göstərməkdədir.

Qadın gücü dedikdə yalnız emosional dözümlülük deyil, eyni zamanda sosial aktivlik, qərarvermə qabiliyyəti və məsuliyyət daşımaq bacarığı nəzərdə tutulur. Müxtəlif sahələrdə çalışan qadınların sayı artdıqca, onların cəmiyyətin inkişafına təsiri də daha aydın hiss olunur. Təhsil, səhiyyə, idarəçilik və sosial sahələrdə qadınların iştirakı cəmiyyətin daha balanslı inkişafına şərait yaradır.

Bununla yanaşı, mövcud reallıq göstərir ki, qadınlar hələ də müəyyən sosial stereotiplərlə üz-üzə qalırlar. Onlardan həm peşəkar, həm ideal ana, həm də mükəmməl həyat yoldaşı olmaları gözlənilir. Bu isə əlavə psixoloji yük yaradır. Məhz bu nöqtədə cəmiyyətin yanaşması dəyişməlidir: qadınlardan “mükəmməllik” deyil, “imkan və dəstək” əsasında yanaşma tələb oluna bilər.

İş mühitində apardığım müşahidələr də göstərir ki, qadınlar idarəetmədə daha empatik, daha çevik və komanda ruhunu qorumağa meyillidirlər. Bu xüsusiyyətlər isə müasir dövrdə effektiv idarəçiliyin əsas göstəricilərindən hesab olunur. Eyni zamanda, qadınların detallara diqqəti və məsuliyyətli yanaşması onların rəhbərlik etdiyi kollektivlərdə daha sağlam iş mühiti yaradır.

Bundan əlavə, ailə daxilində qadının rolu da xüsusi əhəmiyyət daşıyır. O, yalnız ana deyil, həm də tərbiyəçi, dəstəkçi və dəyərlərin daşıyıcısıdır. Sağlam düşüncəli və özünə inanan qadınlar gələcək nəsillərin formalaşmasında mühüm rol oynayır və cəmiyyətin inkişafına birbaşa təsir göstərirlər.

Qadın gücünün inkişafı üçün yalnız fərdi səylər kifayət deyil. Burada dövlət siyasəti, təhsil sistemi və ictimai münasibətlər mühüm rol oynayır. Qız uşaqlarının təhsilə cəlb olunması, qadınların əmək bazarında bərabər imkanlara malik olması və onların sosial müdafiəsi bu istiqamətdə atılan əsas addımlardır.

Nəticə etibarilə, qadın gücü yalnız fərdi uğur məsələsi deyil – bu, cəmiyyətin ümumi inkişaf göstəricisidir. Güclü qadın güclü ailə, güclü ailə isə güclü cəmiyyət deməkdir. Bu səbəbdən qadınların gücləndirilməsi yalnız onların deyil, bütün cəmiyyətin gələcəyinə qoyulan ən dəyərli sərmayədir.

**Vüsalə Məmmədova**

# DƏYƏRLƏR YALNIZ SÖZLƏ DEYİL, HƏM DƏ DAVRANIŞLA ÖTÜRÜLÜR



Hacı Bəkiroğlu
haci-bekiroglu@hotmail.com

Əvvəllər cəmiyyətimizdə nəsillərarası münasibətlər xüsusi əhəmiyyət kəsb edirdi. Dədələr, babalar ailənin və ümumilikdə cəmiyyətin ağsaqqalı sayılar, öz həyat təcrübələri ilə gənclərə yol göstərər, onlara düzgün istiqamət verərdilər. Kiçiklər isə böyüklərə hörmətlə yanaşar, onların sözünü diqqətlə dinləyər, davranışlarını özlərinə örnək götürərdilər. Bu qarşılıqlı münasibət cəmiyyətin mənəvi dayaqlarından biri idi və insanlar arasında sağlam bağların formalaşmasına xidmət edirdi.

Bizlər də bu böyüklərin sözünün sadəcə nəsihət olmadığına, həyatın süzgəcindən keçmiş bir həyat təcrübəsi olduğuna inanmışdıq. Onların söylədikləri çətin anlarda gənclərə dayaq olur, doğru qərar verməkdə yol göstərirdi. Gənclər böyüklərin nəsihətindən güc alar, onların həyat tərzindən ilhamlanar və öz gələcəklərini daha sağlam əsaslar üzərində qurmağa çalışardılar.

Lakin bu gün bəzən fərqli bir mənzərə ilə qarşılaşırıq. Nəsihət yerinə ikili davranışlar, iki sözdən birinin kobud ifadələrlə müşayiət olunması, etik çərçivədən kənar hərəkətlər getdikcə daha çox müşahidə edilir. Bəzi hallarda böyüklər özləri gənclərə örnək olmaq əvəzinə, onların gözündə nüfuzlarını itirəcək davranışlar sərgiləyirlər. Bu isə gənclərin böyüklərə olan hörmətini sarsıdır, onların düzgün nümunə axtarışında məyusluq yaşamasına səbəb olur.

Ən narahatedici məqam isə odur ki, bu cür halların artması nəsillər arasında uçurumu daha da dərinləşdirir. Gənclər artıq təkcə nəsihətə deyil, həmin nəsihətin arxasında dayanan davranışa baxırlar. Əgər sözlə əməl arasında uyğunsuzluq varsa, deyilənlər öz təsir gücünü itirir və inandırıcılıq zəifləyir.

Əslində isə gənclərin böyüklərdən öyrənəcəyi çox şey var: səbir, təmkin, həyat təcrübəsi, ailə və milli-mənəvi dəyərlərə bağlılıq. Amma bu dəyərlər yalnız sözlə deyil, davranışla ötürülür. Çünki gənclər eşitdiklərindən daha çox gördüklərinə inanırlar. Onlar üçün ən təsirli dərs, göz önündə baş verən real davranışdır.

Məsələn, bir ağsaqqal gəncə “vaxtını səmərəli istifadə et, kitab oxu, özünü inkişaf etdir” deyirsə, lakin özü gününü çayxanalarda və ya yol kənarlarında məqsədsiz şəkildə keçirirsə, bu nəsihətin heç bir təsiri olmaz. Əksinə, belə ziddiyyət gəncin düşüncəsində şübhə yaradır və deyilən sözlərin dəyərini azaldır.

Cəmiyyətin sağlam inkişafı üçün böyüklərin sözü ilə əməli arasında uyğunluq olmalıdır. Gənclərə hörmətlə yanaşmaq, onları anlamağa çalışmaq, etik və məsuliyyətli davranış sərgiləmək nəsillərarası dialoqun əsas dayaqlarıdır. Unutmaq olmaz ki, tərbiyə yalnız öyüd-nəsihətlə deyil, nümunə ilə verilir.

Bu baxımdan hər bir böyüyün üzərinə böyük məsuliyyət düşür. Onlar yalnız sözləri ilə deyil, davranışları ilə də gənclərə yol göstərməlidirlər. Çünki bugünkü gənclər sabahın cəmiyyətini formalaşdıracaq əsas qüvvədir və onların necə formalaşması birbaşa bu gün gördükləri nümunələrdən asılıdır.

Əgər bir ağsaqqal, və ya valideyn hər gün evə içkili halda gəlirsə, oğluna və ya nəvəsinə alkoqol qəbul etmə, siqaret çəkmə deməyinin heç bir təsiri qalmayacaq. Çünki bu gənc düşünəcək ki, əgər bu söylədikləri zərərlidirsə o zaman özü niyə qəbul edir?!

Unutmamalıyıq ki, ən güclü nəsihət sözlə deyil, nümunə ilə verilir. Babaların, ağsaqqalların davranışı gənclər üçün yol göstərən bir işıq olmalıdır. Əks halda, biz bir-birimizdən öyrənmək əvəzinə, bir-birimizdən uzaqlaşacaq, cəmiyyət olaraq mənəvi dəyərlərimizi itirmək təhlükəsi ilə üz-üzə qalacağıq.

# "NİYƏ BİR UNİVERSİTETƏ QƏBUL OLUB DİGƏRİNDƏ OXUMALIYAM?" – 1+4 PROQRAMI TƏLƏBƏLƏRİNİ NƏ GÖZLƏYİR?



Müxtəlif fakültələrdə təhsillərini davam etdirmək istəyən 1+4 proqramının hazırlıq kursu tələbələri üçün gələcək qeyri-müəyyəndir. Ali təhsil sistemində planlaşdırılan dəyişikliklər etnik azlıqların nümayəndələrinin seçim imkanlarını məhdudlaşdırır və onların istədikləri universitetə daxil olmalarını çətinləşdirir.

Heç nə dəyişmir. 1+4 olacaq 1+3, tələbələrin mobillik imkanı olacaq, – Təhsil Nazirliyindən belə izah edirlər.

*"Belə çıxır ki, mənim seçimim mövcud deyil".*

18 yaşlı Elminaz Osmanova Marneuli rayonunun Kiraç-Muğanlı kəndində yaşayır. Bu gün İliya Dövlət Universitetində 1+4 proqramının hazırlıq kursunda təhsil alır. Gürcü dilini öyrənir, hüquq fakültəsinə qəbul olmaq istəyir və gələcəkdə öz notarius bürosunu açmağı arzulayır. Elminaz bu arzusunu həyata keçirə biləcəkmi?

Elminaz İliya Dövlət Universitetində istədiyi fakültədə təhsilini davam etdirə bilməyəcək. Ali təhsil sahəsində planlaşdırılmış dəyişikliklərə görə, hüquq fakültəsi yalnız Tbilisi Dövlət Universitetindən (TDU) olacaq.

Onun üçün və 1+4 proqramının iştirakçısı olan bir çox digər tələbə üçün bu gün harada və hansı şəraitdə təhsillərini davam etdirəcəkləri tam aydın deyil.

**Bakalavrın birinci kursunda istədikləri fakültəyə qəbul ola biləcəklərmi?**

*"Axı TDU və ya başqa universiteti istəsəm elə başdan ora qəbul olardım. Belə çıxır ki, mənim seçimim mövcud deyil"* – Elminaz deyir. – *"Bu gün təkcə İliya Dövlət Universitetinin hazırlıq kursuna təxminən 500 gənc qəbul olub. Hamı tələbə ola bilərmi? Əgər başqa universitetə keçməliyiksə, axı orada da müsabiqə var, orada da bizim kimilər – 1+4 proqramının iştirakçıları var. Üstəgəl gürcü abituriyentlər də əlavə olunur".*

Elminaz planlaşdırılan dəyişikliklərdə ümumilikdə və etnik azlıqların nümayəndələri üçün hansı təhlükəni gördüyünü bizimlə bölüşərək bildirir ki, bu gün 1+4 proqramının hazırlıq kursuna qəbul olanların əksəriyyəti etnik azlıqların məskunlaşdığı kəndlərdən gəlirlər. Orada gürcü dilini keyfiyyətli və tam öyrənə bilmirlər. Gürcü dilində gündəlik ünsiyyətləri yoxdur. Ona görə də bu kursu uğurla başa vurduqdan sonra təhsili davam etdirmək onların gələcəyi üçün həlledici əhəmiyyət daşıyır.

*"Başlanğıc – A1 səviyyədə buraya gəldim və indi artıq danışa bilirəm. Hələ qrammatikada çətinlik çəkirəm, amma bunun üzərində də işləyirəm. Gürcü lektorlar da bizə kömək edirlər. Bizim üçün burada gürcü tələbələrlə bərabər təhsil almaq çox mühümdür ki, inteqrasiya ola bilək. Bu məhdudlaşdırılarsa çox qapılar bağlanacaq".*

**Reforma, yoxsa manea?**

18 yaşlı Bayram Məmmədov da Marneulinin Qullar kəndindəndir. Bu kursda təhsil alır. O da hüquq fakültəsinə qəbul olmağa hazırlaşır. Abituriyentlik dövründə böyük həvəslə universitet seçib, burada təhsilini davam etdirmək istəyirmiş. "Keyfiyyətli, Avropa təhsili almaq istəyirdim və İliyaunini də buna görə seçdim", – deyə Bayram bildirir.

İndi isə Bayram da çaşqınlıq içindədir və ümidini itirib, çünki seçdiyi universitetdə və istədiyi fakültədə təhsilini davam etdirə bilməyəcək.

*"Bilirik ki, gələn il ümumilikdə 300 tələbə qəbul etməlidirlər. Onlar arasında gürcü abituriyentlər də var. Necə bölünəcəyik? Hüquq fakültəsi yalnız TDU-da qalır və belə çıxır ki, orada oxumalıyam. Amma onların da bu proqramda öz tələbələri var axı. Kim hara düşəcək – heç nə bilmirik. Buraya kimi isə sanki bizim gələcəyimiz çox aydın idi".*

Elminaz və Bayram tək deyillər. Etnik azlıq nümayəndəsi olan tələbələr, onların valideynləri və müəllimlər 11 martda birgə bəyanat da yayımladılar və bildirdilər ki, 1+4 proqramının qısaldılması, azərbaycanlı, erməni, osetin və digər etnik azlıq tələbələr üçün yalnız ali təhsil əlçatanlığını məhdudlaşdırmaq deyil, bu, həmd də sosial qeyri-bərabərliyi artıracaq, ciddi şəkildə bu gənclərin inteqrasiya prosesinə ziyan vuracaq.

Rusudan Qersamiya İliya Dövlət Universitetində gürcü dili ikinci dil kimi və inteqrasiya proqramına rəhbərlik edir. O, xatırlayır ki, 2010-cu ildə bu proqram qüvvəyə minəndə onlar yalnız 5 abituriyent qəbul ediblər. Bu gün yalnız İliya Dövlət Universitetinin hazırlıq kursunda etnik azlıq nümayəndəsi olan 500 tələbə var.

*"İndi isə belə çıxır ki, kvota sisteminə aid olan yeni hazırlanmış qayda bu proqramda tələbələrin sayını əhəmiyyətli dərəcədə azaldacaq. Həmin 500 tələbədən 350-si hazırlıq kursunu uğurla bitirə bilməyəcəkmi? Amma bizdə proqramın 92 % ləğv olunmasına görə gənclərə təhsillərini İliya Dövlət Universitetinin bakalavr proqramında davam etdirmək imkanı verilməyəcək".*

Təhsil sistemində planlaşdırılan dəyişikliklər yalnız İliyauniyə aid deyil. 1+4 proqramının hazırlıq kursunda başqa universitetlərdə də yüzlərlə tələbə oxuyur.

İslahat nəticəsində Tbilisidəki dövlət universitetlərində etnik azlıqlara ayrılmış yerlər hiss olunacaq dərəcədə azalır.



Bu barədə təhsil məsələləri üzrə araşdırmaçı Şalva Tabatadze qeyd edir ki, 2025-ci ildə gürcü dili proqramına həmin universitetlərə 1368 tələbə qəbul olub. 2026-cı ildə bu göstərici ən yaxşı halda 1120-yə qədər (20 %) azalacaq.

Onun hesablamalarına görə, yerlərin azalması xüsusilə azərbaycandilli abituriyentlərə təsir göstərəcək. 2025-ci ildə bu qrup üçün ayrılmış 976 yerdən gələn il yalnız 560 yer qalacaq. Bu o deməkdir ki, onların qəbul olmaq imkanı 40 %-dən çox azalır.

Şalva Tabatadzenin proqnozuna görə, dəyişikliklər regional universitetlərdə də çətin vəziyyət yaradacaq – Samtsxe-Cavaxeti Universitetində tələbə qəbulu yarıya enəcək. Ermənidilli tələbələrin kvotası 60 % azalacaq (54-dən 22 yerə qədər). Qori Universitetində isə azərbaycandilli tələbələrin qəbulu 41-dən 23-ə qədər azalacaq.

Təhsil Nazirliyinin qərarı ilə İliya Dövlət Universitetinə qəbul ediləcək tələbələrin sayı növbəti tədris ili üçün təxminən 92 % azaldılacaq. Hazırda universitetin 17 mindən çox tələbəsi var, lakin 2026-cı ilin yayından etibarən il ərzində yalnız 300-dən 400-dək tələbə qəbul edə biləcək.

Etnik azlıqların hüquqları ilə bağlı işləyən "Salam" təşkilatı da planlaşdırılmış dəyişikliklərdə təhlükə görür. Hələ fevralın ortalarında "Salam" bildirirdi ki, ölkədə gedən təhsil reformaları çərçivəsində etnik azlıq nümayəndələrinin təhsilə əlçatanlığı daha da qeyri-müəyyən və məhdud olacaq.

**Ümumiyyətlə kimsə bizi düşündümü?**

*"Mənim fikrimcə, reforma anons ediləndə etnik azlıqlar ümumiyyətlə nəzərə alınmayıb. Universitetlərin hazırlıq kursuna qəbul olmuş tələbələrin nə istədiyi barədə heç düşünməyiblər də. Onlar sadəcə deyiblər ki, harasa keçməlisiniz"* – Ruslan Omarov Azadlıq Radiosuna bildirir. O özü də 1+4 proqramı ilə tələbə olub.

Ruslan 2019-cu ildə Tbilisi Dövlət Universitetinin hazırlıq kursuna qəbul olub. O, düşünür ki, bu kurs ideal şəkildə tam olmayıb və bu gün də çox şey təkmilləşdirilməlidir, ancaq etnik azlıqların gürcü dilini öyrənməsi üçün bu köməkçi vasitələrdən biri idi.

O, xatırlayır ki, TDU-da proqram praktikadan çox nəzəri xarakter daşıyırdı və İliya Universitetində tələbələrə daha çox praktik tapşırıqlar verildiyini daim eşidirdi.

Hazırlıq kursunu bitirdikdən sonra Ruslan bakalavr pilləsində ingilis filologiyası istiqaməti üzrə təhsilini davam etdirib. Bu gün o, artıq İliya Universitetinin magistrantıdır və təhsilin idarə edilməsi proqramının son kursunda oxuyur.

*"Seçimlərinin məcburi şəkildə dəyişməsindən əlavə, qəbul qaydalarının necə olacağı, nədən imtahan verəcəkləri, mobillik qaydalarının necə dəyişəcəyi ilə bağlı da ciddi qeyri-müəyyənlik var... Bizim üçün gürcü dili ana dili olmadığına görə bu rəqabətə girmək onsuz da çətindir. Buna görə də biz öncədən uzun müddət hazırlaşırıq, nə istədiyimizi dəqiqləşdirib seçimimizi elə edirik. İndi isə belə çıxır ki, hər kəs özü üçün arzuolunmaz olan fakültəyə və ya universitetə keçməli olacaq".*

**1+4 nə deməkdir?**

Bu proqram 2010-cu ildən qüvvədədir. Məhz həmin vaxtdan etnik azlıq nümayəndələrinə sadələşdirilmiş qaydada Gürcüstanda ali təhsil almaq imkanı verildi. Sadələşdirilmiş sistem ümumtəhsil imtahanının Azərbaycan, erməni, abxaz, osetin dillərində verilməsini və müvafiq bal topladığı halda ali təhsil almaq imkanını nəzərdə tutur. Gənclər 1 il ərzində gürcü dilində hazırlıq kursu keçirlər. Sonra isə 60 kredit topladıqları halda təhsillərini istədikləri fakültədə davam etdirirlər. Bu proqramla qəbul olmuş tələbələrin sayı ildən ilə artırdı.

Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının veb-səhifəsində 2010-cu ildən 2018-ci ilə qədər tələbələrin proqram üzrə qəbul statistikası belədir:

- 2010-cu il – 247 tələbə;
- 2011-ci il – 430 tələbə;
- 2012-ci il – 589 tələbə;
- 2013-cü il – 890 tələbə;
- 2014-cü il – 673 tələbə;
- 2015-ci il – 741 tələbə;
- 2016-cı il – 960 tələbə;
- 2017-ci il – 1047 tələbə;
- 2018-ci il – 1231 tələbə.

Tələbələrin bu proqrama qəbulu yalnız 2020-ci ildən 2022-ci ilə qədər olan dövrdə biraz azaldı və bu pandemiyadan irəli gəlirdi. Ondan sonra proqram çərçivəsində qəbul olmuş etnik azlıq nümayəndələrinin sayı yenidən artır.

Ümumilikdə, son 5 il ərzində 5837 etnik azlıq nümayəndəsi olan gənc tələbə olub, bunlardan 951 maliyyə dəstəyi əldə edib və bu ümumi sayın yalnız 16 %-dir. 2025-ci ildə bu proqramın 1400-ə yaxın tələbəsi var idi.

**Təhsil Nazirliyi yığılmış suallara nə cavab verir?**



***"Heç nə ləğv olunmur, heç nə dəyişmir. Biz bunu etnik azlıq nümayəndələrinə də başa saldıq. Mobillik imkanları da olacaq. Planlaşdırılmış yeganə dəyişikliklərlə əgər bakalavr pilləsində təhsil almaq 4 il əvəzinə 3 il olacaqsa,1+4 proqramı da dəyişərək 1+3 proqramı ilə əvəz olunacaq"*** – Təhsil Nazirliyindən bildiriblər.

Mənbə: **Azadlıq Radiosu**
Gürcü dilindən tərcümə etdi ***Aynurə Əliyeva***

# NARKOMANİYA – SƏSSİZ FƏLAKƏT



Hər bir valideyn övladının sağlam, xoşbəxt yaşamğını və uğurlu bir gələcəyinin olmağını xəyal edir. Bu xəyallarını gerçəkləşdirmək üçün də dayanmadan çalışır, ağır-yüngül demədən hər işdə işləyirlər. Əllərindən gələni edirlər ki, uşağına bir gün ağlasın, pis-yaxşı bir gələcək hazırlaya bilsinlər. Ancaq təəssüflər olsun ki, bəzən həyatın sərt reallıqları buna icazə vermir və bu gözəl arzuları paramparça edir.

Bu reallıqlardan biri də bəşəriyyətin qarşılaşdığı, bəlkə də ən təhlükəli problemlərdən biri olan narkomaniyadır, digər adıyla desək "ağ ölüm"dür. Bu bəla səssiz və gizli şəkildə insanların həyatına daxil olur, yavaş-yavaş onların arzularını və gələcəyini əlindən alır. Hətta insan özü belə nə baş verdiyini bilmədən hər şeyi darmadağın edir. Bir vaxtlar böyük xəyallarla, ümidlərlə yaşayan gənclər bəzən bir anlıq marağın, bəzən də yanlış mühitin qurbanına çevrilərək həyatlarını öz əlləri ilə məhv edirlər.

Addım-addım bu bataqlığa sürüklənən insanlar ilk dəfə bunun yalnız bir sınaq, bir cəhd olduğunu düşünürlər. Lakin heç nə düşünüldüyü kimi olmur. Əvvəlcə "bir dəfədən nə olacaq ki" deyə başlayan bu yol, zamanla vərdişə, daha sonra da asılılığa çevrilir. Zaman keçdikcə isə insan öz-özünü idarə etmək gücünü itirir və artıq bu bataqlıqdan çıxmaq getdikcə daha çətin, az qala imkansız olur. Bəzən də bu bataqlığa "dost" adlandırdıqları, yanlış mühit tərəfindən düşürülür. Çünki insan həyatında ən güclü təsirlərdən biri məhz yaşadığı mühit və dostlarıdır. Yanlış çevrədə olmaq insanı hiss etmədən yavaş-yavaş uçuruma aparır. Ən xırda problemin öhdəsindən bu yolla daha asan gələcəklərinə inandırılırlar. Həmin anda insan cəsarət göstərib seçim etdiyini düşünür, ancaq seçimin onun yerinə başqaları tərəfindən edildiyini başa düşmür. Beləcə yanlış mühit insanı öz qaranlığına çəkir.

Narkomaniyadan əziyyət çəkən insanların həyatında bir müddətdən sonra nə ailə qalır, nə dost, nə də vicdanın səsi. Maddə onların düşüncələrini, hisslərini və iradələrini əsir alır. Ətraflarında baş verənlər, kimin nə yaşadığı, kimə hansı zərərin dəydiyi onlar üçün artıq əhəmiyyətini itirir. Beləcə narkotik maddə tədricən insanın düşüncəsini və həyat eşqini əlindən alır. Artıq onların dünyası tək bir şey üçün dönür – yeni maddə tapmaq.

Bu vəziyyətə düşən insan üçün yeganə məqsəd haradan olursa olsun pul tapmaq və narkotik əldə etmək olur. Vicdan, qanun, mənəviyyat kimi dəyərlər isə yavaş-yavaş silinməyə başlayır. Maddənin əsarəti altında olan biri üçün oğurluq etmək, kimisə aldatmaq, hətta başqasına zərər vermək belə adi və bəzən qaçılmaz bir yol kimi görünür. Bir vaxtlar xəyal belə etmədikləri cinayətləri çəkinmədən törədə bilirlər. Çünki narkomaniya insanın yalnız bədənini deyil, eyni zamanda ruhunu və düşüncə tərzini də ələ keçirir.

Narkomaniyanın ən ağrılı tərəfi isə odur ki, o yalnız bir insanı deyil, bütöv bir ailəni, hətta ətrafındakıları da özü ilə bərabər uçuruma sürükləyir. Ailələr dağılır, ümidlər qırılır, sağlamlıq itir, anaların gözləri yaşlı qalır, valideynlərin ümidləri puça çıxır. Bununla da nəticələnmir, dost-tanışlar da bir-bir uzaqlaşır, çünki heç kim daim yalanın, təhlükənin və xəyanətin içində yaşamaq istəmir. Bir zamanlar sevilən, hörmət edilən bir insan get-gedə hamının qorxduğu və uzaq durmağa çalışdığı birinə çevrilir.

Narkomaniya sadəcə bir pis vərdiş deyil, o insanı insan edən bütün dəyərləri məhv edən səssiz bir fəlakətdir. Maddə insanı öz həyatının sahibi yox, əsirinə çevirir. Bu yolun sonu isə çox vaxt ya həbsxana divarları, ya da erkən ölüm olur.

Buna görə cəmiyyət narkomaniyaya yalnız bir tibbi problem kimi deyil, həm də böyük mənəvi və sosial təhlükə kimi yanaşmalıdır. Çünki narkomaniya sadəcə bir ailənin problemi deyil. Bu, bütöv cəmiyyətin gələcəyini hədələyən böyük bir bəladır. Ona görə də bu təhlükəli yolun başlanğıcı çox vaxt kiçik görünsə də, sonu insanı geri dönüşü çox çətin olan qaranlıq bir uçuruma aparır. İnsan gərək hər addımını düşünərək atsın, çünki bəzən bir anlıq maraq bütün bir ömrün faciəsinə çevrilə bilir.

Narkomaniya cəmiyyətin sağlamlığını da sarsıdır. Bununla mübarizə yalnız qanunların sərtləşdirilməsi ilə mümkün deyil. Bu problemin qarşısını almaq üçün ailə, məktəb və cəmiyyət birlikdə çalışmalıdır. Gənclərə düzgün dəyərlər aşılamaq, onları diqqət və qayğı ilə əhatə etmək bu bəlanın qarşısını almaqda ən mühüm addımlardan biridir. Qısası, narkotik cəmiyyətin üzləşdiyi ən ağır faciələrdən biridir.

Unutmaq olmaz ki, hər bir gənc bir ailənin ümidi, bir cəmiyyətin gələcəyidir. Onları bu qaranlıq yoldan qorumaq isə hamımızın ortaq məsuliyyətidir. Çünki narkomaniya hər kəsin gələcəyini məhv edən səssiz fəlakətdir.

**Afaq Azər**

# ÜMİDLƏ AÇILAN QAPILAR, CAVABSIZ QALAN ÜMİDLƏR



İnsan xəstəxanaya gedəndə sadəcə müalicə üçün yox, ümidlə gedir. Ağrısını azaltmaq, probleminə cavab tapmaq və ən əsası, özünü güvəndə hiss etmək üçün gedir. Həkim otağına daxil olan hər kəsin içində eyni gözlənti olur: "Məni anlayacaqlar və kömək edəcəklər". Amma bəzən bu gözlənti özünü doğrultmur.

Bir vaxtlar deyirdilər ki, hər dərdin öz dərmanı var. Bu fikir sadə görünsə də dərin məna daşıyırdı. Çünki hər problemin səbəbi fərqli olduğu kimi, həlli də fərqli olmalıdır. Lakin zaman keçdikcə bəzi hallarda bu fərqlilik arxa plana keçir və müxtəlif problemlərə eyni yanaşmanın tətbiq olunduğu müşahidə olunur.

Bu gün tez-tez eşidilən bir fikir var. Xəstəxanaya gedən insanların çoxuna "sistem asmaq" məsləhət görülür. Sanki baş ağrısı da, halsızlıq da, başqa şikayətlər də eyni üsulla "həll olunur". Halbuki "sistem" sadəcə damara verilən mayedir və yalnız müəyyən hallarda faydalıdır. Hər vəziyyət üçün uyğun bir həll yolu kimi qəbul edilməsi isə insanı düşündürür. Çünki müalicənin əsası səbəbi anlamaqdır. Səbəb isə müayinə və araşdırma ilə üzə çıxır. Əgər bu mərhələlər ötürülürsə verilən qərarın nə dərəcədə düzgün olduğu sual altında qalır. Elə bu düşüncələr insanı bəzən sadə bir hadisə üzərində dayanmağa vadar edir.

Keçdiyimiz günlərdə bir yaxınım bel ağrısı ilə xəstəxanaya getmişdi. Xəstənin şikayətlərini sonuna qədər dinləməmiş, heç bir müayinə edilməmiş ona "get təcili tibbi yardım hissəsinə de ki, zəhərlənmişəm, sənə "sistem" asacaqlar" demək nə qədər düzgündür? Zəhərlənmə hadisəsi kimi göstərib "sistem" almağı tövsiyə etmək sadəcə qəribə yox, eyni zamanda düşündürücüdür. Çünki burada əsas məsələ ağrının səbəbini tapmaq deyil, daha çox onu müvəqqəti şəkildə aradan qaldırmaq kimi görünür. Çox zaman isə sadəcə pula önəm verilir. Belə ki, xəstənin şikayətlərini dinləməmiş oturduqları masanın siyirməsini açıb pul qoymaqlarını gözləyirlər. Kim pul versə ona qarşı daha yaxşı davranırlar. Hər şeyin pulla ölçüldüyü dövrdə yaşayırıq. Sağlamlığımız belə pulun olub-olmamasına bağlıdır. Sanki insan həyatı ilə qumar oynanılır...

Bu məqamda insanın yadına keçmiş dövrlər düşür. Belə bir hadisə eşitmişdim. Həkimliyin hələ bu qədər inkişaf etmədiyi zamanlarda əməliyyatlar üçün, xüsusi təhsil almış insanlar olmadığına görə, daha çox əli çevik olanlar axtarılırdı. Uyuşturucu maddələr olmadığı üçün xəstənin daha az qan itirməsi və əməliyyatın daha tez bitməsi üçün belə bir yola əl atırdılar. Hətta bəzi hallarda bu iş bərbərlərə həvalə olunurdu. Məqsəd isə işi tez görmək idi. Amma zaman göstərdi ki, sürət bilik və təcrübəni əvəz edə bilmir. Əlbəttə ki, bu yanaşmanın nəticələri ağır olurdu. Məsələn: infeksiyalar, səhvlər, itirilən həyatlar...

Bu gün isə vəziyyət fərqlidir. Tibb inkişaf edib, biliklər artıb, imkanlar genişlənib. Bu isə hər bir xəstəyə fərdi yanaşmanı daha da vacib edir. Çünki hər insan fərqlidir və hər problem öz səbəbinə görə yaranır. Bütün bunlar insanı bir sual üzərində düşünməyə vadar edir. Müalicə həqiqətən səbəbi aradan qaldırır, yoxsa sadəcə nəticəni qısa müddətlik gizlədir? Əlbəttə, bu sahədə işini vicdanla və peşəkarlıqla görən həkimlər çoxdur. Onların fəaliyyəti səhiyyəyə olan inamın əsasını təşkil edir. Məhz buna görə də mövcud problemlərin aradan qaldırılması daha böyük əhəmiyyət daşıyır.

Problem sadəcə həkimlərin göstərdiyi müalicə ilə məhdudlaşmır. Eyni zamanda pasiyentlərin də rolu az deyil. Sual vermək, maraqlanmaq, səbəbi öyrənmək – bunlar hər bir insanın haqqıdır. Bəzən insanlar sual verməyə çəkinir, utanırlar. Halbuki gündəlik həyatda bu cür davranmırıq. Məsələn, mağazadan və ya bazardan nəsə alanda qiymətdə kiçik fərq olanda və ya aldığımız məhsulun çəkisi az gələndə dərhal etiraz edirik, haqqımızı tələb edirik. Bəs niyə eyni yanaşmanı sağlamlığımızla bağlı göstərmirik? Əslində, sağlamlıq hər şeydən daha önəmlidir. Bu səbəbdən sual verməkdən çəkinməməliyik. Çünki məhz bu suallar bizi düzgün müalicəyə aparan ən vacib addımlardan biridir.

Nəticə olaraq demək olar ki, səhiyyə sahəsində əsas məqsəd yalnız müvəqqəti ağrı kəsmək deyil, düzgün və düşünülmüş şəkildə müalicə etmək olmalıdır. Çünki sağlamlıq sadəcə bir ehtiyac deyil, ən böyük dəyərdir.

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin*
*Dəqiq və təbiət elmləri fakültəsinin*
*2-ci kurs tələbəsi*

# ÇOXBİLMİŞ KARLİKSON



Keçənlərdə eşitdim ki, Jalə xalanın oğlu məktəbdə müəllim işləyir. Yaxşı tanıyıram, universal adamdır, hər mövzuya qarışar, hər işə burun soxar bu KarlikSon. Deyirlər məktəbdə kimya dərsi deyir (nə yalan deyim, nə ki var gülmüşəm). Adam universitetdə dörd il bakalavr oxuyub, ixtisası da ekonomist. İndi isə kimya müəllimidir. Dağıl, a dünya, dağıl. Heç müəllim statusu da almayıb ha!

Uşaqlardan soruşdum, dedilər incəsənət dərsini də keçir. Dedim, incəsənətdən nə öyrədir? Cavab verdilər: "Çıxarın ev tapşırıqlarınızı burada yazın".

Nə deyim vallah! Dediyim kimi, yaxşı tanıyıram. Bu KarlikSon Ramazan ayında birdən-birə qatı dindara çevrilir. Kimsə dindən danışsa dərhal müdaxilə edir. Soruşursan:

– Namaz qılırsan?

Deyir, yox.

– Yaxşı, heç olmasa oruc tutursan?

Deyir, yox, xəstəyəm, səhhətim imkan vermir (Xəstəliyi bəhanədir, çünki xəstə deyil, yemək dəlisidir. Heç bir iftardan qalmır).

Siyasi söhbət düşən kimi birdənbirə ölkənin ən öndə gedən siyasətçisinə çevrilir. Elə danışır ki, guya bütün qərarları özü verir. Heç kimi də bəyənmir, hamı səhvdir, bircə özü düzdür.

Belələrini gətirib müəllim vəzifəsinə qoyanda nəticə də belə olur. Belə adam uşağa dərs deyirsə, o uşaq da yarımçıq formalaşacaq. Müəllim özü hər mövzuda yarımçıqdırsa, şagird necə bütöv olsun?

Gələk bizim "kimyaçı" müəllimə. Kimya dərsi deməlidir, amma birdən tarixdən danışmağa başlayır. Osmanlı belə getdi, monqollar belə etdi – elə pafosla, elə ideal şəkildə danışır ki, az qalırsan bütün tarix kitablarını yandırasan.

Bir az sonra ədəbiyyata keçir, sonra siyasətə, sonra dinə... Bir sözlə, özündən başqa heç kimi bəyənməyən bu adam elə davranır ki, sanki məktəbin bütün fənləri ona tapşırılıb. Nəticədə, kimya müəllimi olub, amma kimyadan başqa hər şeydən dərs deyir.

Hələ arada bizə də daş atır. Soruşur ki, siz uşaqlara qızlı-oğlanlı bir yerdə dərs deyirsiniz?

Deyirəm, necə yəni? Saxta mollalıq damarı tutanda başlayır "fətva" verməyə: "Qızla oğlan bir yerdə dərs oxumaz". Deyirəm, yaxşı, bəs siz məktəbdə qızlara ayrı otaqda, oğlanlara ayrı otaqdamı dərs deyirsiniz? Bu nə boş söhbətdir axı?

Bu adam ömründə bir dəfə də olsun teatra gedib tamaşa izləməyib. Səhnənin nə olduğunu bilmir. Amma hər mövzuya uzun burnunu soxmaqdan da qalmır. O gün uşaqların rəsm sərgisi var idi, biz də getmişdik. Bir də gördüm bu da oradadır. Təəccübləndim, dedim, nə əcəb bu da burdadır. Nə qədər istədim məni görməsin, amma gördü. Məni görən kimi yaxınlaşdı. İlk sualı da bu oldu:

– Necədir, xoşuna gəldi?

Dedim:

– Əllərinə sağlıq, uşaqlar gözəl iş çıxarıblar.

Elə bunu demişdim ki, başladı yenə pafoslu danışmağa. Bu dəfə də rəssam damarı tutdu:

– Sən buna rəsm deyirsən? Pikasso belə çəkirdi, Van Qoq belə idi...

Bu dəfə özümü saxlaya bilmədim, dedim:

– Aya, bəsdir də! Van Qoq, Pikasso... Başqa kimi tanıyırsan? Adını çəkdiyin rəssamların hansı əsərini görmüsən, hansından danışa bilərsən? Məndən beşbetər, heç birini tanımırsan, bu nə özünü bəyənməkdir səndə?

Səkkiz yaşında uşağın çəkdiyi rəsmi gətirib Pikassonun əsəri ilə müqayisə etmək nə deməkdir axı? O uşaq sənin dediyin Pikasso kimi çəkməli deyil. O öz dünyasını çəkir. İndi belə adamları gətirib məktəbə müəllim qoyanda adam az qalır... Nə isə, deməyə çox söz var, yaza bilmirəm.

Kamil bir palançı olsa da insan,
Yaxşıdır yarımçıq papaqçılıqdan.
(Nizami Gəncəvi)

**Binəli İslamoğlu**
*"BEEZ" Uşaq Teatrının bədii rəhbəri*

# MƏN XOŞBƏXTƏM Kİ, ATAM O SƏHVİ ETMƏDİ



Təsəvvür edin meşəyə getmisiniz. Ruha sığal çəkən gözəlliklər bir yana, quşların cəh-cəhi, cırcıramanın cırıltısı, ağacdələnin taqqıltısı, ayının nəriltisi bir meşə simfoniyası yaradır. Hərəsi bir cür gözəl, təbii, yerində. Nə yaxşı ki, yerində, yoxsa təbii biosenoz olmazdı ki...

Hər çiçək öz ətri ilə gözəl, hər insan da öz ana diliylə danışanda özü olur, deyilmi? Xoşbəxtəm ki, mənimçün dünyanın ən gözəl guşəsi olan Qafqazda dünyaya gəldim. Nə yaxşı ki, Gürcüstan kimi naz-nemətli, tükənməz təbii axar-baxarlı bir yurdum var, nə yaxşı ki, öz milli dəyərləri olan tarixi bir elim var.

Doğulduğum ölkənin etnik azlığı hesab olunsam da heç zaman bu fərqdən çətinlik çəkmədim. Bir neçə xarici ölkədə olmuşam, müxtəlif millətlərlə də həmsöhbət olmuşam, heç vaxt millətimin, dövlətimin, el-obamın adına zərərli, aşılayıcı bir davranışım və təqdimatım olmayıb. Bilirsiniz niyə? – Ona görə ki, özümü təqdim edəcək səviyyədə özümü təqdim etməyi bacarmışam.

Yadımdadır, qonşu qəsəbədə rusdilli məktəb vardı, atamın qohumları hamısı "rus sektorunda" oxuyurdular, anam məni ora yazdırmaq istəmişdi, atam qoymamışdı. "Tutarlı" səbəblərlə uzun bir mübahisədən sonra məni kəndimizdə anadilli məktəbimizə yazdırmışdı. Nə yaxşı ki, mən ana dilində təhsil almışdım.

Mən laylayla böyümüşdüm, məktəbdə sinif yoldaşlarımla "Tıq-tıq xanım"ın mahnısıyla, "Cırtdan"ın yağ-yaxmasıyla, "Tutu topu tut" deyərəkdən "Can gülüm, can-can" dedik, "Gəl, gəl, a yaz günləri"ni gözləyərək "Cücələrim"i oxuduq ki, "Uşaq və buz" kimi buzu əridək, "Ay havada uçan durna, bizi qoyub qaçan durna" deyə qışqıraq, "Xoruz" şeiri ilə oyanaq, "Keçi" şeiri ilə quzuların arxasıyca qaçaq. Sonra hərflərlə böyüdük, artıq nağıllara, hekayələrə döndük, Səməd Vurğun misralarında yoğrulduq, Füzulidə fırlandıq, Nizamidən ibrətləndik, cümlə-cümlə təhlil olduq, isimdən feilə, mübtədadan xəbərə yoğrulduq, yapıldıq. Beləcə, ana dilimizi öyrənib sonra rus dili, gürcü dili, alman, ingilis, fransız dillərini də öyrənənlər vardı. Yolumuzda dəyişən bir tarix yarandı. Siyası keçid dövrü yaşadıq. Bütün çətinliklərə rəğmən oxuduq, ali təhsil üçün Azərbaycana üz tutduq. Rusiyaya gedənlər də vardı. Təməlimiz möhkəm idi deyə dil öyrənmək asan idi, çünki ana dilində zamanları bilirdik deyə digər dildə təhlil edə bilirdik və s.

Dördüncü sinifdən rus dili, gürcü dili fənni keçmişdik. 30 il Azərbaycanda yaşadım, az yaşımdan buradan getdim deyə istifadə etmədim, amma A1 səviyyəsində bilirdim, heç unutmadım, rus dilini işlətdim deyə təkmilləşdirdim. "Ruskoyazıçnı" qohumlarımızdan heç nədə geridə deyildim, əksinə, dəfələrlə irəlidəydim, çünki bir mənəvi zənginliyim vardı. Gürcüstana qayıdanda gürcü dili biliyimi artırdım, bu, asan oldu, axı öz dilini bilərəkdən öyrənmək asan olur.

Əsas fikrim odur ki, nə yaxşı ana dilimdə təhsil aldım, nə yaxşı mən milli ruhu duyumluyam. Atamın qohumları vardı ha, mən onlara həmişə yazıq kimi baxırdım, onlar hamısı təhsil üçün Rusiyaya getdilər, həkim, mühəndis, memar, müəllim və s. işləyirdilər. Əvvəllər Bakıya tez-tez gələrdilər, görüşürdük. Nə qədər maddi durumları qənaətbəxş, ictimai axarda olsalar da, mükəmməl nitqləri əcnəbiydi, onlar ana dilində məişət səviyyəsində danışır, heç bir milli ədəbi, bədii, tarixi, coğrafi fikirləri yox idi. Əminəm, olduqları elitar mühitdə qəti özlərini təqdim edə bilməzdilər. Ona görə yazıq idilər ki, nə rus kimi rus idilər, nə millət kimi millət.

Məktəb xatirəmizdə bir oyunumuz vardı. "Ortada qaldı" sağında bir dəstə, solda bir dəstə, qalırsan ortada, sağa gedirsən topun sola atılır, sola gedirsən topun sağa atılır. Bax, öz ana dilini bilməyən yarımçıqları mən elə görürəm. Ona görə ki, onlar heç vaxt cəh-cəh vura bilməzlər. Əlbəttə, Şota Rustavelini gürcücə oxuyaq, amma mütləq və mütləq Zəlimxan Yaqubu Azərbaycan dilində oxuya bilək.

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# BELƏ-BELƏ İŞLƏR: QALAKTİON TABİDZE



*(əvvəli ötən sayda)*

Qalaktion Tabidze (1891-1959) – Gürcüstanın Xalq şairi, Gürcüstan Elmlər Akademiyasının Akademiki. Ömrünün son illərində Qalaktionun səhhəti kəskin şəkildə pisləşdi. Dipsomaniya, alkoqol aclığı, spirtli içkilərdən sui-istifadə – Qalaktionun tibbi müayinələrində alkoqolla bağlı terminlər tez-tez təkrarlanır. Qalaktion tibb kompleksinin daimi xəstəsi idi. İntiharından bir il əvvəl Tabidze Vake klinikasına dörd dəfə qəbul edildi. 1959-cu il də xəstəxana palatası ilə başladı. Üç həftəlik kurs 5 martda başa çatdı, lakin 12 gün sonra şair yenidən özünü tibb kompleksinin nevrologiya şöbəsində tapdı. İntihar etdiyi gün, 17 martda Qalaktionu qardaşı oğlu səhər saat 10-da tibb müəssisəsinə gətirdi. Saat 1-də şair üçün əlavə olaraq ikinəfərlik palatada üçüncü çarpayı da quruldu. Palatadakı xəstələr sıxışdırılmalarından narazılıqlarını bildirdilər. Saat 2-də Qalaktion ilk dəfə nevrologiya şöbəsinin təcili yardım şöbəsinə daxil oldu. Şairin adına məcburi anket açıldı. Onu divana uzadıb standart müayinə prosedurundan keçirdilər. Nəbz 84, qan təzyiqi 180/80. Tabidzeyə hipertoniya və ateroskleroz diaqnozu qoyuldu. Martın 17-də Qalaktion, demək olar ki, palatasına girmirdi. İntihar etməzdən əvvəl bütün vaxtını dəhlizdə keçirir, xəstəxana işçiləri ilə söhbət edir və siqaret çəkirdi. Saat 4 radələrində onu yenidən nevrologiya şöbəsinin təcili yardım şöbəsində, bu dəfə növbətçi həkim Susana Arakelova müayinə etdi. Saat 5-də şair ilk intihar cəhdini etdi. O, stul götürüb dördüncü mərtəbənin eyvanına çıxmağa çalışdı. Qalaktion xəstəxana işçiləri tərəfindən saxlanıldı. Balkon yağışdan islanmışdı və tibb işçisi ona bayıra çıxmamağı məsləhət gördü. Xəstə Tabidze bir kəlmə də demədən ona itaət etdi. Qalaktion üçüncü və sonuncu dəfə nevrologiya şöbəsi müdirinin kabinetinə girəndə saat 6-ya 10 dəqiqə qalmışdı. Xəstəxana xalatını çarpayının üstünə atdı, pəncərənin yanına stul gətirdi, üstündə oturdu və pəncərəni açdı... Qalaktionu son səfərində bütün Gürcüstan yola saldı. Mtatsminda xiyabanına aparan küçələr insanlarla dolu idi. Tabidze Mtatsmindada Barataşvilinin yaxınlığında dəfn edildi. 2000-ci ilin iyun ayında Gürcüstan Pravoslav Kilsəsi Sovet hökumətinin verdiyi əzabların məntiqi nəticəsi olaraq Qalaktionu intihar günahından bağışladı. Onun məzarı Gürcüstanın Katolikos-Patriarxı II İlya tərəfindən müqəddəs elan edildi.

*(Mənbə: Mixeil Basiladze, "24saati.ge")*

***

Görkəmli gürcü və ictimai xadim. Gürcüstanın xalq şairi, Gürcüstan Elmlər Akademiyasının akademiki Qalaktion Tabidze. Gürcüstanın dahisi adlandırılan sənətkar cəmiyyətdən təcrid olunmuş şəkildə yaşayırdı.

Şair ən dərin düşüncələrini ən yaxın dostlarından biri olan gündəliklə bölüşürdü. Qalaktion Tabidzenin yazdığı budur:

"Hələ də xəstəyəm və Yeni ili ciblərim boş halda qarşılayıram... Ayaqyalın gəzirəm; yeganə nailiyyətim nəhayət əldə etdiyim bu paltodur... Ən dəhşətlisi odur ki, hələ də intihar düşüncəsi mənə əzab verirdi, çünki bu düşüncədən əbədi olaraq qurtulduğumu düşünürdüm. Saat düz on ikiyə qoyulub və onun zəngi mənə Yeni ilin gəlişindən xəbər verəcək. Keçən ilin hadisələrindən bir şey xatırlamağa dəyərmi?..

İl boyu iyrənc şəkildə qidalanırdım və güman ki, buna görə hər şeyə həvəsim itir. Min dəfə soyğunçuluğa məruz qalmışam. Bir dəfə paltomu götürdülər, ikinci dəfə sənədləri olan pencəyimi (oh, bu dəhşətli idi), üçüncü dəfə ayaqqabılarımı və qaloşlarımı, dördüncü dəfə papağımı (cəmi üç papağımı itirmişəm)...

Müxtəlif vaxtlarda iki təptəzə şarfımı itirdim, böhran zamanı son şalvarımı satdım. Anam məni kənddən qarğışla yola saldı. Abesalom bura gəldi, mənə boş "lay-lay" söyləyib yenidən çıxıb getdi.

Xəstə olanda Olya məhz elə o anda yoxa çıxır və mənə su gətirəcək bir kəs yoxdur. Bundan əvvəl bütün bir həftə xəstə idim, ac yatağımda uzanmışdım və yanıma heç kim gəlmədi. Ac, xəstə və paltosuzluğa görə ümidsizliyə qapılmışdım. Halımı soruşan bir kimsə olmadı. Düz beş ildir ki, mənzilimə heç bir dostum gəlməyib, məgər, bu, bədbəxtlik deyilmi? Əgər bir kişi öz otağında ölsə, bu barədə yalnız 15 gündən sonra, çürümə qoxusu qapıları dağıdıb həyata aparanda biləcəklər..."

*(Qalaktionun gündəliyindən: 1932-ci il, 31 dekabr)*

***

Vera kitab mağazasından Lermontovu alırdım.

– Salam, əzizim! – Kimsə arxadan məni salamladı. Dönüb baxdım ki, Qalaktiondur.

– Salam, cənab Qalaktion! Lermontov gürcü dilində nəşr olunub, mən də almaq istəyirəm, siz də istəyirsinizmi? – Soruşdum və əlimi cibimə saldım.

– Mənimlə gəl, əzizim! – Qalaktion əlini qoluma qoyub məni Vera bazarının yanındakı bir pivəxanaya apardı.

Biz həmçinin həmin kitab mağazasını və bir çox başqalarını qeyd etdik. Qalaktion yanağıma toxundu və gülümsəyərək dedi:

– Lermontovu, Puşkini və Tolstoyu rus dilində oxumalısan, əzizim, Qalaktionu isə gürcü dilində, yalnız gürcü dilində oxumalısan...

...Və həqiqətən də, Qalaktionu gürcü dilində oxumaq nə qədər böyük xoşbəxtlikdir, Puşkini rus dilində oxuya bilməmək isə nə qədər bədbəxtlikdir.

Əgər məndən soruşsalar, deyərəm: Qalaktionun doğulduğundan bəri Yer kürəsinin çiyinlərində onun qədər yüksək olan şair gəzməyib və bu Qalaktion iyirminci əsrdə oyanmış və Günəşə qaldırılmış Rustavelinin dahisidir.

*("Mənim Qalaktionum" – Nodar Dumbadze)*

***

Fransadan gələn yazıçılar Maçabeli küçəsindəki Yazıçılar Birliyinin evinə baş çəkdilər. Onlar təngnəfəs Qalaktionu axtarırdılar. Həmin vaxt Qalaktion meydanda bir neçə nəfərlə içki içirdi. Nəhayət, onu tapdılar, amma o getmək istəmədi. Ona o qədər yalvardılar ki, başqa çarəsi qalmadı.

İçəri girər-girməz əlinə buynuzu götürdü və tost əvəzinə bədahətən nəsə şeir oxudu və birdən geri döndü.

***

Akaki Xintibidzenin söylədiyi:

Qalaktion və Konstantine, sən demə, Tsagveridə istirahət edirlərmiş. Konstantine hər dəfə Qalanı (Qalaktionu – M.M.) belə salamlayardı:

– Salam, aslan!

Qala cavab verirdi:

– Yaşasın pələng!

Bu, uzun müddət davam edirdi.

Konstantine pələnglikdən incidi. Bu niyə həmişə aslan olmalıdır, – deyə düşündü və bir gözəl səhər çağı onu belə salamladı:

– Salam, pələng!

Qalaktion cavab verdi:

– Salam, Kotsiya! (Konstantinenin əzizlənərək çağırılan adıdır – M.M).

***

Qalaktion akademikliyə namizəd göstəriləndə bu məsələni Yazıçılar Birliyinin Rəyasət Heyəti nəzərdən keçirirdi. Yazıçılardan biri buna qarşı çıxaraq bildirdi: Bizi biabır edəcək, şərabı sevir, həmişə sərxoş olur.

Qalaktion sakitcə soruşdu:

– Sən, əzizim, şərabı sevmirsənmi?

– Xeyr! – Əleyhdarı qürurla dedi.

– Heç sərxoş olmusanmı?

– Xeyr, heç vaxt! – O, yenə təkəbbürlə bildirdi.

– Yoldaşlar, onda bu adamı akademik seçin! – Qalaktion qışqırdı.

***

Qalaktionun Partsxnalada dərs dediyi müddətdə bir şagird dərsə gələ bilmədi. Qalaktion ona evdə baş çəkdi və özü üçün olan pulu uşağın anasına verdi, çünki anası onun yuduğu şalvarı qurutmağı çatdıra bilmədiyindən uşaq məktəbə gedə bilməmişdi.

"Bu pula ona başqa bir şalvar da al", – deyə uşağın anasına bildirib.

***

İrakli Seretelinin atası Sidamon Sereteli bir dəfə Qalaktion ilə rastlaşıb. Sən demə, Qalaktion sərxoş olub və saqqalında turşunun qalıqları qalıbmış. Sidamon turşu qalıqlarını təmizləyib ondan xahiş edir: "Cənab Qalaktion, sizinlə bir şəkil çəkdirə bilərəmmi?"

– Siz mənimlə tarixə düşmək istəyirsiniz, cavan oğlan?

– Xeyr, siz özünüz tarixə düşün, – Qalaktiona qürurla cavab verib.

***

Bir dəfə, sən demə, Moskvada yazıçıların qurultayı keçirilirdi, Gürcüstan da daxil olmaqla, on beş respublikanın nümayəndə heyətləri gəlməli idi... Nümayəndə heyətimiz 50 nəfər üzrə tərtib edilmişdi və onlar hətta getdilər də... Qalaktion 50 nəfərin içində yox idi, ona görə də səbəbini soruşublar. Deyiblər ki, nəzərdən qaçırmışıq...

***

Qalaktion bir kafeyə girdi. Sahibi nəyisə israr edirdi. Kafenin sahibi (Qalaktionu tanımadı) ona qışqırdı: "Məni rahat burax, a kişi, səni kimisi mini gəlir!"

Qalaktion bığının altında güldü və çıxıb getdi.

***

Bir dəfə quş maşının şüşəsinə çırpılıb, Kutaisiyə doğru gedən Qalaktion maşını saxlayıb, quşu torpağa basdırıb və sonra yenə yoluna davam edib.

***

Qalaktion qəribə bir uşaq idi. Bir dəfə anası balaca şairi otaqda tək qoymuşdu və Makrine otağa qayıdanda Qalaktionun pəncərədən içəri girən günəş işığını öpdüyünü görüb. Təəccüblənmiş anası qışqırıb: "Nə edirsən, Qatuni?" Qalaktion utanıb və anasının qucağında ağlayıb. Uşaqlıqdan bəri qəribə bir insan idi. Buna görə də anası məktublarında həmişə yazırdı: "Həmişə fikrimdə olan, məni müxtəlif yollarla narahat edən oğlum". Və Abesaloma isə yazırdı: "Qalaktionu sənə tapşırıram, bilirsən ki, nə çətin baxılasıdır. Camaat arasında ona acıqlanma, tək olanda onu danla, yoxsa qorxuram ki, başına nəsə bir şey açmasın".

***

Qalaktion "İnturist"in bağçasında oturub bir qədəh şərab gözləyir.

Ofisiant gecikir. Qalaktion ona səslənir: – Əzizim!

Ofisiant narazılıqla cavab verir:

– Bir gözlə, a kişi, sənin kimilər milyondur, mən də tək.

*(Nodar Dumbadze, "Günəşli gecə")*

Topladı və gürcü dilindən tərcümə etdi:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 MART
2026-CI İL
№ 06 (246)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANDA ORTA ƏMƏKHAQQI 2466 LARİYƏ ÇATIR, TƏHSİL SAHƏSİNDƏ İSƏ 1517 LARİDİR



Gürcüstan Milli Statistika Xidmətinin son məlumatlarına görə, 2025-ci ilin IV rübündə ölkədə orta aylıq nominal əməkhaqqı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,2 % (248,7 lari) artaraq 2466,2 lari təşkil edib.

Statistika Xidməti tərəfindən 18 martda dərc olunan məlumata əsasən, orta aylıq məvaciblərin artımı təhsil sektorunda da qeydə alınıb. Daha dəqiq desək, 2024-cü ilin IV rübündə təhsil sahəsində orta aylıq əməkhaqqı 1409 lari idisə, 2025-ci ilin IV rübündə bu rəqəm 1517 lari olub.

Bu müsbət dinamikaya baxmayaraq, Statistika Xidmətinin müvafiq diaqramı göstərir ki, təhsil iqtisadi fəaliyyət növləri arasında əməkhaqqının məbləğinə görə hələ də sonuncu yerlərdən birini tutur.

***Hesabata əsasən, fəaliyyət növləri üzrə ən yüksək əməkhaqları aşağıdakı sahələrdə qeydə alınıb:***

- İnformasiya və rabitə – 4373,2 lari (ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,1 % artıb);
- Tikinti – 3938,9 lari (17,2 % artıb);
- Maliyyə və sığorta fəaliyyəti – 3747,7 lari (11,1 % artıb);
- Dağ-mədən sənayesi – 3386,5 lari (31,8 % artıb).

2025-ci ilin IV rübündə qadınların orta əməkhaqqı 1952,5 lari, kişilərin isə 2978,9 lari təşkil edib. Əməkhaqlarının illik artımı qadınlarda 173,9 lari (9,8 %), kişilərdə isə 325,1 lari (12,2 %) olub. Fəaliyyət növlərinə görə, demək olar ki, bütün sektorlarda kişilərin əməkhaqqı qadınlarınkını üstələyib.

Orta əməkhaqqının yüksəkliyinə görə regionlar arasında Tbilisi və Mtsxeta-Mtianeti liderlik edir.

*Mənbə: edu.aris.ge*

## MİLLİ AZLIQLARIN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN TƏLƏBƏ STATUSUNUN DAYANDIRILMASI VƏ PEŞƏ PROQRAMLARINDA TƏHSİL ŞƏRTLƏRİ




Gürcüstanın təhsil, elm və gənclər nazirinin əmri ilə peşə təhsili proqramlarına qəbul qaydaları və şərtləri təsdiq edilib. Bu sənəddə həmçinin milli azlıq nümayəndəsi olan peşə proqramı tələbələrinin statusunun dayandırılması və bərpası yolları da qeyd olunub.

Sənədə əsasən, 2026-cı ildə peşə proqramlarına qəbul məqsədilə seçimlər milli azlıqların dillərində (Azərbaycan, rus və ya erməni dillərində) də həyata keçirilə bilər. Peşə təhsili müəssisəsi bu qaydada ilə qəbul olunmuş tələbəyə proqramda nəzərdə tutulmuş dil kompetensiyasını müəssisənin fərdi qiymətləndirmə mexanizmləri vasitəsilə sübut etdiyi təqdirdə gürcü dili modulunu keçmədən birbaşa ixtisas təhsilinə başlamaq icazəsi vermək hüququna malikdir.

Əks halda, müəssisə bu yolla qəbul edilmiş tələbələr üçün tədrisə mütləq gürcü dili modulu ilə başlamalıdır. Gürcü dili modulunu uğurla tamamlaya bilməyən şəxsin peşə proqramı tələbəsi statusu dayandırılır.

**Peşə proqramı tələbəsi statusu hansı hallarda aktivləşdirilir?**

***Gürcü dili modulunu uğurla başa vurduğu təqdirdə, tələbə keçid (gözləmə) statusundan yararlanır və aşağıdakı hüquqlara malikdir:***

1. Qəbul olunduğu eyni proqram üzrə təhsilini davam etdirmək. Bu zaman şəxsi ərizə əsasında, növbəti qəbul dövründə həmin proqrama qəbul olan yeni tələbələr dərslərə başlayan kimi status aktivləşdirilir;
2. Mobillik hüququndan istifadə etmək. Şəxsi ərizə əsasında və ya statusun bərpasından sonra eyni proqramda təhsili davam etdirmək mümkün olmadıqda, şəxs “Peşə tələbələrinin mobillik qaydaları”na uyğun olaraq daxili və ya xarici mobillikdən yararlana bilər;
3. Əldə etdiyi hüquqi vəziyyəti qoruyub saxlamaq.

*Mənbə: edu.aris.ge*

## ÖTƏN İL GÜRCÜSTANDA MƏNFİ TƏBİİ ARTIM QEYDƏ ALINIB



Gürcüstan Milli Statistika Xidmətinin yaydığı məlumata əsasən, 2025-ci il ölkədə 44 min 319 nəfər dünyasını dəyişib, bu da 2024-cü illə müqayisədə 0,8 faiz çoxdur.

Milli Statistika Xidmətinin məlumatına görə, ən çox ölüm halı Tbilisidə qeydə alınıb – 12743 nəfər. Ən az ölüm halı isə Raça-Leçxumi və Aşağı Svaneti bölgələrində olub – 585 nəfər.

Xidmətin 2025-ci il məlumatlarına əsasən, körpə ölümü nisbəti, yəni hər 1000 diri doğuşa düşən 1 yaşa qədər ölüm hallarının sayı hər min nəfərə 7,6, beş yaşa qədər ölüm nisbəti isə hər min nəfərə 9,1 təşkil edib.

Bununla yanaşı, 2025-ci ildə Gürcüstanda mənfi təbii artım qeydə alınıb ki, bu da diri doğum və ölüm sayı arasındakı fərq deməkdir. Bu fərq 6452 vahid olaraq müəyyən edilib.

Bundan əlavə, Tbilisi, Acarıstan Muxtar Respublikası və Kvemo Kartli bölgəsi istisna olmaqla, bütün bölgələrdə mənfi təbii artım qeydə alınıb.

## GÜRCÜSTANDA DOKTORANTURA MƏZUNLARININ SAYI 16 % AZALIB




Gürcüstan Milli Statistika Xidmətinin son məlumatlarına görə, Gürcüstanda doktorantura pilləsi üzrə məzunların sayı azalıb.

Xüsusilə, əvvəlki illə müqayisədə 2025-ci ildə məzunların sayı 16,0 % azalaraq 368 nəfər təşkil edib.

***2025-ci ildə doktorantura məzunlarının proqramlar üzrə bölgüsü aşağıdakı kimidir:***

- Sosial elmlər, biznes və hüquq – 43,5 %;
- Səhiyyə və sosial təminat – 19,3 %;
- Humanitar elmlər və incəsənət– 17,9 %;
- Elm (Dəqiq və təbiət elmləri) – 9,0 %;
- Digər – 10,3 %.

*Mənbə: edu.aris.ge*

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.